# Üzümü ver şərabçıya...





**Hər elin, elatın tanınmış, sayılıb-seçilən, hörmət-ehtiram qazanmış övladları olur. Yurdun belə övladları; - oğulları, qızları başqalarına nümunə olmaqla, elə-obaya baş ucalığı gətirirlər.**

Ulu Şirvan bölgəsinin, millətimizin tarixində önəmli yer tutan qədim Şamaxı şəhəri öz tarixliyi və bənzərsizliyilə türk dünyasının iftixar yeridir.

Bəşəriyyətə neçə-neçə dahilər, filosoflar, memarlar verən bu yurdun, bu gün də dövlətçiliyə sədaqətilə, öz əməyi ilə öncüllərdən olan və hər cür ada-təltifə layiq olan torpaq ürəkli, millətcanlı bir övladı da Ağaqədir Rəşid oğludur!

İxtisasca üzümçü-aqranom olan Osmanov Ağaqədir Rəşid oğlu M.Qasımov adına Tovuz texnikumunu bitirib. 1987-ci ildə isə sevimli peşəsindən ayrılmadan qiyabi yolla təhsilini davam etdirərək Gəncə Kənd Təsərrüfatı Akademiyasının "Yerquruluşu və torpaq müfəttişliyi" ixtisasını qazanır...

A.Osmanov ilk əmək fəaliyyətinə 1974-cü ildə başlamış, daha sonra üzümçü briqadir, 1993-cü ildən Mədrəsə Fəhlə Komitəsinin sədri vəzifəsində çalışmışdır. 1994-cü ildən 1999-cu ilədək Şamaxı RİHB-nin Quşçu kəndi üzrə icra nümayəndəsi vəzifəsində, 1999-cu ildən 2001-ci illərdə RİHB-nin Muğanlı-Qurdtəpə kəndləri üzrə icra nümayəndəsi işləmiş, 2004-cü ildən bu günə kimi isə RİHB-nin Şəhriyar qəsəbəsi üzrə icra nümayəndəsi vəzifəsində uğurla fəaliyyət göstərir.

Bütün bu vəzifələrdə çalışmaqla yanaşı, o həm də rayonun tanınmış ictimaiyyətçisidir. Rayonda keçirilən hər hansı bir sosial-iqtisadi və siyasi-ictimai tədbirlərin iştirakçısı olur, yeri gəldikcə qazandığı təcrübəsinə əsaslanır, öz şəxsi mövqeyini-fikrini bildirir.

İlk görünüşdən-zahirən "adamayovuşmaz" təsiri bağışlayan, həssas təbiətli insan köksündə el-oba üçün yanan bir ürək gəzdirir. Obrazlı dillə desək; - O, Şamaxının "Məcnun"udur...

İlk gəncliyindən ailənin ehtiyaclarını ödəmək üçün ev-eşiyə can yandıran bu insanın zəhmətkeşliyi, qədirbilənliyi sonradan ictimai mühitdə özünü göstərmiş, ailədən başlayan yanımcıllığının, sonradan elə-obaya vurğunluğa çevrilməsi də təbii bir haldır.

...Ağaqədir Rəşidoğlu hələ V.İ.Lenin adına sovxozda işlədiyi zaman (1976) üzümün üstünə çoxlu qar yağıbmış. Həmin ərəfədə mərkəzi komitənin katibi Heydər Əliyev Şamaxıya səfər edir. 29 saylı briqadanın gənc başçısı, 23 yaşlı A.Osmanov xalqımızın qüruru olan rəhbəri qarşılayanların önündə idi. Bol məhsulun gətirdiyi sevinc hissinə, ölkə başçısının gəlişi bir xoş ovqat qatmışdı.

Hələ sovetlər dönəmində Heydər Əliyevin şəxsən tanıdığı, əlini sıxıb təbrik etdiyi qabaqcıl bir briqadanın başçısı, işgüzarlığı ilə seçilən A.Osmanova öz xeyir-duasını vermiş, onun briqadasının öncüllər sırasında olmasını xüsusilə vurğulamış və zəhmətsevər bir gənci ürəkdən alqışlamışdı...

Heydər Əliyevin yenidən Azərbaycana, daha sonra 1993-cü ildə isə Respublika rəhbərliyinə qayıdarkən A.Osmanov "söz pəhləvanları"nın ağzını yummaq üçün deyirdi: "Heydər Əliyev qəliz zarafatları sevmir, ağıllı olun" - deyirdi. A.Osmanov "ara qatanlar"a qarşı mübarizə aparırdı. Hər yerdə böyük hörmət və ehtiramını ürəklə dilə gətirirdi.

Heydər Əliyev hələ sovetlərin vaxtında 12 dəfə Şamaxıya səfər edib və hər bir səfərində də məhz V.İ.Lenin adına sovxoza gəlməsi ilə əmək kollektivinin dərin rəğbətini qazanmışdı. Qabaqcıl olan bu sovxozun göstəriciləri ölkə rəhbərinin diqqətindəydi. Sovxoz kollektivi, fəhlələri bu diqqətin, qayğının müqabilində daha da ürəklə çalışmış, ölkə rəhbərinin onlara bəslədiyi etimada layiq olmuşdir.

Heydər Əliyevin rəhbər-fəhlə, fəhlə-rəhbər doğmalığı, səmimiyyəti bu sovxozun hər dəfə birincilər sırasına çıxmasında mühüm rol oynamışdı. Sadə vətəndaşa, fəhləyə və ya hər hansı bir zəhmətkeşə qayğıyla yanaşmasıyla, idarə etmənin dahisi olduğunu bir daha sübut edirdi. 1976-1994-cü illərdə sovxozun hər il "keçici qırmızı bayrağa" layiq görülməsi Heydər Əliyevin sovxoz zəhmətkeşlərinə olan inamı və xüsusi diqqəti idi...

İlk gəncliyindən ideal saydığı bir rəhbərin çıxışını, tövsiyələrini dinləyən Ağaqədir Rəşidoğlunun özünə olan inamı qat-qat çoxalmışdı. Onun sovxozda üzümçülük mütəxəssisi kimi çalışması və bu kollektivdə qabaqcıl briqadir olması, Heydər Əliyevlə dəfələrlə görüşməsi, "könül-xatirə" dəftərinə yazılan ən xoş günlər kimi indi də qədirşünaslıqla xatırlanır...

Ağaqədir Osmanovla olan söhbətimdə o söylədi ki, böyük şəxsiyyət - lider olan Heydər Əliyev 1993-cü ildə xalqın iradəsilə hakimiyyətə qayıdanda inamla bildirdim ki, xalqımızın daha böyük uğurları, qələbələri innən belə başlayacaq...

Ulu öndər Heydər Əliyevin layiqli varisi-davamçısı İlham Əliyev hakimiyyətə gələndən sonra, tanınmış üzüm mütəxəssisi, müxtəlif vəzifələrdə çalışmış Ağaqədir Osmanovun Şəhriyar qəsəbəsinə icra nümayəndəsi təyin olunması təqdirəlayiq bir haldır.

Əmək adamlarıyla, kütlə ilə dil tapmaqda püxtələşmiş A.Osmanov ona olan etimadı bu gün də layiqincə doğruldur. 2005-ci ildən 2017-ci ilə kimi Şəhriyar qəsəbəsində 450 ha yeni üzüm bağı salınıb. Üzüm bağlarının salınması, "Sarı kəhrəba"nın bolluğunun yaranmasına xidmət edir. Bu isə A.Osmanovun övladı olduğu torpağa bütün varlığıyla bağlılığının əyani təsdiqidir.

A.Osmanovun "könül verdiyi" üzüm bağlarının əkilməsi, becərilməsi və nəhayət, bar verməsi, bu təmkinli, üz-gözündən qətiyyət yağan insanın köksündə bir mənəvi rahatlıq, könül xoşluğu yaradır. Əkilən hər tingin isə insan oğlunun süfrəsində öz barıyla ağızları dada gətirməsi, nuşluqla yeyilməsi, ana dediyimiz torpağın insan zəhmətinə minnətdarlığının əlaməti deyilmi?!

Torpaq əkib-becərməyi və gördüyü işdən mənən zövq almağı həyatının mənası bilən Ağaqədir Osmanov bilik və təcrübəsini, idarəetmə istedadını, ölkəsinin tərəqqisi, istiqlalımızın möhkəmlənməsinə sərf etməyi vətəndaşlıq borcu bilir.

Şamaxı şəhərinin zəhmət meydanında qazandığı uğurla, tənəklərinin "yaşıl misra"larıyla tanınan, köksündə bəşəri sevgili bir ürək gəzdirən A.Osmanov yurdunun bir pərvanə övladıdır. O, dediklərimizi öz əməli işlərilə doğruldub. Ağaqədir Rəşidoğlu idarə etdiyi ərazidəki üzüm bağlarının təbibi-loğmanıdır, desək, fikrimiz daha təbii alınar. O, tənək tingi, təzə üzüm bağı barədə danışarkən, elə bir təəssürat yaranır ki, sanki söhbət qayğıya ehtiyaclı körpə uşaqdan gedir...

"Yaxşı mütəxəssis olmaq hələ azdır, yaxşı vətəndaş, yaxşı eloğlu və ən başlıcası, yaxşı valideyn olmaq lazımdır" aforizmi Ağaqədir müəllimin boyuna biçilmiş bir kəlam-libas kimidir. O, yüksək səviyyəli mütəxəssis, layiqli vətəndaş, sədaqətli eloğlu olmaqla bərabər, gözəl bir atadır! Övladlarına təhsil verib, onların ev-eşik sahibi olmasına can yandırıb.

Bir mehriban, səmimi və sədaqətli ailənin beş övladı var. Ata ürəyinin, ana qəlbinin döyüntüsünün vəhdətindən yaranmış bu övladlar ailənin-nəsilin mənəvi xəzinəsidir. Bu övladlar bir atanın, ananın arzu qanadlarıdır. Bu oğullar, qızlar bir ailə ocağını işıqlandıran nur şəfəqləridirlər.

...Bu pərakəndə ruhlu portret oçerkimizdə bir ailə başçısının, bir dövlət qulluqçusunun həyatda, cəmiyyətdə tutduğu mövqedən, gördüyü işlərdən qismən söhbət açdıq. Və bu məqamda - "çörəyi ver çörəkçiyə, birini də üstəlik", atalar məsəlimizi xatırladım və istər-istəməz ağlıma bu məsəlin, yazımızın ovqatına-ruhuna uyğun, bir az fərqli sinonimi-oxşarı gəldi: - üzümü ver şərabçıya, bir salxım da üstəlik, - deyə pıçıldadım...

**Nazim ƏLİOĞLU.**